# Seminar-müşavirə keçirilib

Oktyabrın 13-də Qəbələ Mədəniyyət Mərkəzində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunada seminar-müşavirə keçirilib.



Dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova rayondakı dini durum barədə ümumi məlumat verib. Ətayə Osmanova Qəbələdə həyata keçirilən dini maarifləndirmə tədbirlərindən, eyni zamanda, dini icmaların fəaliyyəti üçün yaradılan şəraitdən danışıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında qeyd edib ki, Azərbaycan xalqı son dövrlərdə ateizm və mövhumat arasında ən doğru orta yolu formalaşdırır. Bu yol dini cəhalətdən dünyəvi maarifçiliyə keçidi və bu kontekstdə İslamın cəmiyyət həyatında yalnız müsbət rol oynamasını təşviq edir. Bu proses müstəqillik illərində dövlətin əsas prioritetlərindən birinə çevrilib. Səyyad Salahlı bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən yürüdülən bu uzaqgörən siyasətin əsas mahiyyəti inanc dəyərlərimizin milli xüsusiyyətlərimizlə uzlaşdırılması və İslamın savaşa, məzhəblərarası konfliktlərə, cəmiyyətdə mənəvi durğunluğa sürüklənməməsidir.

Ölkəmizdə elan olunan "İslam Həmrəyliyi İli"nin təsadüfi olmadığına diqqət çəkən sədr müavini son 25 ildə bir çox istiqamətlər üzrə nümunələr, örnəklər yaradan ölkəmizdə İslamın zərərli və dağıdıcı təsirlərdən qoruyan mükəmməl Azərbaycan modelinin formalaşdığını deyib. O bildirib ki, Prezident İlham Əliyevin xüsusi diqqət ayırdığı dini maarifçilik, dini icmalara dövlət qayğısı, məzhəblərarası ünsiyyət Azərbaycanda dini radikalizmin, ekstremizmin yayılmasına qarşı əhəmiyyətli rol oynayır.

Seminar-müşaviərədə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov, Qəmərvan kənd məscidi dini icmasının sədri İkram Ziyadov və başqaları mövzu ilə əlaqədar çıxış ediblər.

Seminar-müşavirə dini icma rəhbərlərini maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

**Vüsal SƏMƏDOV.**
**Foto İlkin Vəlizadənindir.**

## MDB-nin birinci onluğundadır

Rusiyanın "TurStat" Analitik Agentliyi MDB-yə üzv olan ölkələrin ən məşhur dağ-xizək kurortlarının siyahısını açıqlayıb.

Reytinq 2017-2018-ci ilin qış mövsümündə turistlərin yerləşdirilməsi üçün onlayn-bron sistemində tutulan yerlərin sayı barədə məlumatların təhlilinin nəticələrinə əsasən təqdim edilib.

"TurStat" xəbər verir ki, Qəbələdə yerləşən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi bu sırada birinci onluqdadır.

MDB ölkələrinin dağ-xizək kurortlarında qış istirahəti 7-10 gün müddətinə planlaşdırılır.

Qeyd edək ki, Tufandağda istirahətin turistik büdcəsi yaşayış yeri və yemək xərci də daxil olmaqla, orta hesabla sutkada 90 ABŞ dolları təşkil edir.

## Təlim təşkil edilib

"AccessBank" tərəfindən Qəbələdəki "Qafqaz Thermal and Spa" hotelində jurnalistlər üçün təlim təşkil olunub.

Təlim məşhur təlimçi Rəşad Bayramov tərəfindən keçirilib.Təlim prosesində Rəşad Bayramov media nümayəndələrinə nitqin təsirliliyinin sirrlərini açıb.

Qeyd edək ki, "AccessBank" ənənəvi olaraq jurnalistlər üçün bu cür təlimlər təşkil edir.

**"Qəbələ"**

# Təntənəli yolasalınma mərasimi

Oktyabrın 10-da Qəbələnin mərkəzindəki geniş və yaraşıqlı parkda böyük izdiham vardı. Rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq- mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, müharibə və əmək veteranları, valideynlər və ictimaiyyət nümayəndələri gənclərin hərbi xidmətə təntənəli yola salınması mərasimində iştirak etmək üçün toplaşmışdı.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin parkda ucaldılmış abidəsi önünə gül dəstələri düzərək ulu öndərə öz dərin ehtiramlarını bildirdi.

Gənclərin hərbi xidmətə yola salınması ilə bağlı keçirilən tədbirdə ilk söz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon Şöbəsinin rəisi polkovnik Niyaz Məmmədova verildi. O, çıxışında çağırışçılara Vətənimizə ləyaqətlə, şərəflə xidmət etməyi, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmağı, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnməyi, ataların keçdiyi şərəfli yolu inamla davam etdirməyi tövsiyə



etdi. Niyaz Məmmədov ərazimizin 20 faizindən çoxunun erməni daşnakları tərəfindən zəbt edilməsi ilə əlaqədar, bu gün əsgərlərimizin ordu sıralarında daha mətin, daha cəsur və yeri gələrsə düşməndən intiqam almaq bacarığına malik olmalarının zəruriliyini vurğuladı.

Sonra rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək Azərbaycan ordusunun Cənubi Qafqazda qüdrətli bir orduya çevrildiyini, xüsusilə müasir hərbi texnikaya malik əsgərlərimizin peşəkarlığının çox yüksək olduğunu bildirdi. Əsgəri xidmətə yola düşən gənclərimizə hərbi xidmət borcunu ləyaqətlə yerinə yetirməyi, komandirlərin verdiyi əmrlərə və tapşırıqlara şərəflə əməl etməyi, Vətən torpağını göz bəbəyi kimi qorumağı tövsiyə etdi, Qəbələyə müzəffər ordunun əsgər kimi geri dönmələrini arzuladı.

Mərasimdə rayon ağsaqqalar şurasının sədri Nazim Mustafayev, çağırışçıların valideynləri və digərləri çıxış etdilər.

Budur, vaxt gəlib çatır. Gənclər dalğalanan üçrəngli Azərbaycan bayrağını öpərək, çalınan marş sədaları altında nizami qaydada əsgəri xidmətə yola düşürlər.

**Rais RƏŞİDOV,**
**«Qəbələ»**
**Foto İlkin Vəlizadənindir.**

# Məhsullarımız xarici bazara çıxarılır

Rayonunun üzüm plantasiyalarında məhsul yığımı başa çatıb. Tədarük olunan məhsul "ASPİ-AQRO" MMC-nin "Savalan" Üzüm Emalı və Şərab İstehsalı Zavoduna təhvil verilib.



Texniki sortlardan şərab hazırlayan müəssisə süfrə üzümlərini daxili bazara çıxarmaqla yanaşı, Rusiyaya da ixrac edir. Gələcəkdə Qəbələ üzümünün digər MDB və Avropa bazarlarında da yer alması qarşıya məqsəd qoyulub.

Müəssisə tərəfindən salınmış plantasiyanın 298 hektarında texniki, 45 hektarında isə süfrə sortları yetişdirilib. Üzüm bağlarında "ASPİ -AQRO" MMC-nin sifarişi ilə İtaliya və Fransadan gətirilən 21 növ texniki və 14 növ süfrə üzümü əkilib. Bu il italiyalı mütəxəsislərin rəhbərliyi ilə müəssisə tərəfindən üzüm bağlarına daha yüksək aqrotexniki qulluq göstərilib və ötən ildəkindən daha keyfiyyətli məhsul əldə edilib. Sahələrdən 1800 ton məhsul toplanılıb ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur.

Müəssisə tərəfindən İtaliyadan gətirilən "Arinorno", "Rebo", "Verdexo", "Qrenaj" sortlarından olan tinglərdən daha 3 hektar sahədə yeni üzüm bağı salınıb. Hazırda şərab istehsalı üçün daha məhsuldar hesab edilən üzüm sortlarından ibarət 5 hektar sahədə yeni bağın salınması üçün hazırlıq işləri görülür.

Fransa və İtaliyadan gətirilən yeni üzüm sortları hesabına müəssisə tərəfindən daha fərqli çeşiddə və rəqabətə davamlı şərablar istehsal etmək, həmçinin məhsul ixracını artırmaq planlaşdırılır. Zavod "Savalan" brendi ilə 16 adda şərab istehsal edir. Məhsulların əksəriyyəti xarici ölkələrə ixrac edilir. Müəssisənin məhsulları bir sıra beynəlxalq sərgilərdə qızıl medal qazanıb.

"Made in Azerbaijan" brendinin xarici bazalarda təşviqi üçün keçirilən bütün ixrac missiyalarında iştirak edən zavod gələn ay Çinin Honkonq şəhərində təşkil olunacaq növbəti belə tədbirdə öz məhsullarını alıcılara təqdim edəcək.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**